**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ OPERALARINDA LEYTMOTİV PRİNSİPİ (XX ƏSRİN 40-70-Cİ İLLƏRİNDƏ)

| | |
|---|---|
| İxtisas: | 6213.01 – Musiqi sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Leyla Cuma qızı Cumayeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**Ülkər Sabir qızı Əliyeva**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, dosent
**İnara Eldar qızı Məhərrəmova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Güllü Həsən qızı İsmayılova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Lalə Daud qızı Hüseynli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
____________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
____________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
____________ **Aytac Elxan qızı Rəhimova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Opera sinkretik janr kimi bütün tarixi mərhələlərdə daxilində mövcud olan incəsənət növlərinin ümumi vəziyyətindən asılı idi. Əlbəttə ki, opera öz-özlüyündə yeniləşməyə meyillidir və bu səbəbdən müxtəlif dövrlərdə yeni mövzular, süjet, yenitipli qəhrəmanlar meydana gəlib və gəlməkdədir. Digər incəsənət növləri kimi (ədəbiyyat, teatr, rəssamlıq, heykəltəraşlıq və s.), opera da aktual dünyagörüşü, bədii təfəkkürü əks etdirərək, ümümmədəni kontekstdə iştirak edir.

Qeyd etmək lazımdır ki, qısa zaman çərçivəsində yaranan operaların araşdırılması və müxtəlif dramaturgiya tiplərinin, ənənələrin inkişafı ilə yanaşı, bədii axtarışların, metod və üslubların tədqiqi də böyük önəm daşıyır və aktuallıq kəsb edirdi. Mürəkkəb quruluşa malik opera dramaturgiyasının inkişafına reçitativ, ariya, ariozo, ansambl, xor nömrələri ilə yanaşı, leytmotivlər də təsir göstərirlər. Artıq XIX əsrdən başlayaraq opera janrının strukturunda leytmotiv prinsipi tədricən aparıcı mövqe tutmağa başlamışdır. Bu fenomenin universallığı onun müxtəlif janrlı əsərlərdə: instrumental, musiqili-səhnə əsərlərində tətbiqi ilə müəyyən edilir. Bu da öz-özlüyündə mənaların assosiativ bağlılığını nəzərdə tutaraq aşağıdakı funksiyaları ayırd etməyə imkan verir:

1. nominativ – obraz, obyekt və ya təsvir olunan fenomeni ifadə edən;
2. emosional – emosional, psixoloji vəziyyətləri ifadə edən;
3. estetik – müstəqil bədii təsirə malik olan və gerçək həyat ilə assosiasiyalar yaradan.

Bildiyiniz kimi, müasir musiqi elmində musiqinin məzmunu və onun ifadə üsullarına böyük önəm verilir. Belə ki, leytmotivin semantik və kommunikativ funksiyaları məzmunun prosessual tərəflərini önə çəkərək əsərin mühüm faktoru olan dramaturgiyanın vəhdətinə zəmin yaradır.

XX əsrdə Azərbaycan musiqisində aparıcı mövqe tutan opera janrının tədqiqi milli musiqişünaslıqda maraq doğuran sahələrdən birini təşkil edirdi. Qısa zaman çərçivəsində yaranan operaların araşdırılması və müxtəlif dramaturgiya tiplərinin, ənənələrin inkişafı ilə yanaşı, bədii axtarışların, metod və üslubların tədqiqi böyük önəm daşıyır və

aktuallıq kəsb edirdi. Ü.Hacıbəylidən başlayaraq bir çox Azərbaycan bəstəkarlarının yaradıcılığında opera janrı dominant mövqe tuturdu və bu janrda əsərlərin yazılması da onların özünəməxsus yazı üslubunun və professionallığının göstəricisi olmuşdur. Opera nümunələrində bir sıra mühüm ideyalar – xalqın özünəməxsusluğu, xarakteri, taleyi və onun dünya tarixindəki xüsusi missiyası, milli kimliyi, əlamətdar tarixi hadisələr, geniş yayılmış ədəbi mövzular və s. öz əksini tapmışdır.

Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin öyrənilməsinə həsr olunmuş tədqiqatın aktuallığı, ilk növbədə, Azərbaycan musiqişünaslığında bu problemin yetərincə işlənməməsi ilə izah olunur. Azərbaycan operalarında leytmotiv prinsipindən istifadə problemi əsasən ayrı-ayrı bəstəkarların yaradıcılığı kontekstində və ya ayrı-ayrı əsərlərin təhlilinə həsr olunmuş tədqiqatlarda qismən işıqlandırılmışdır və bu səbəbdən də müstəqil tədqiqat mövzusu kimi çıxış etməmişdir. Musiqi əsərlərinin kompozisiya və dramaturji xüsusiyyətlərinə nəzər yetirən tədqiqatçılar Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin səciyyəvi xüsusiyyətlərini müəyyən etmək məqsədini qarşıya qoymamışlar.

Opera janrı hər zaman Azərbaycan bəstəkarlarının və musiqişünaslarının diqqət mərkəzində olmuşdur. Bu baxımdan problemin araşdırılması və bu janra olan yaradıcı münasibət dörd istiqamətdə öz əksini tapır:

1. Opera janrında leytmotiv və reminissensiya (xatırlatma) struktur və semantik anlamda;
2. ilk muğam operalarında məzmunun və bədii obrazın açılmasında muğamların rolu;
3. 1940-60-cı illərdə yazılan operalarda leytmotiv prinsipinin araşdırılması;
4. 1970-ci illərdə yazılan operalarda leytmotiv prinsipinin araşdırılması.

Tədqiqatın ilk fəslində dünya musiqi praktikasında leytmotiv və reminissensiyaların tarixi qaynaqlarından bəhs olunur və təsnifat verilir. Burada birinci istiqamətə aid bir sıra araşdırmalara nəzər yetirilmişdir. Opera dramaturgiyasında leytmotiv və leytmotiv sistemi musiqi-bədii amil kimi araşdırılaraq, həm Qərb və eləcə də Azərbaycan bəstəkarlarının ilk operaları nəzərdən keçirilir.

İkinci istiqamət kimi – ilk muğam operalarında məzmun və bədii obrazın açılmasında muğamların rolu məsələsi çıxış edir. Onu da qeyd etmək lazımdır ki, muğam operalarında sonradan ümümən Azərbaycan bəstəkarlarının opera dramaturgiyası üçün səciyyəvi olan ilk "rüşeymlər" meydana gəlmişdir. Ü.Hacıbəyli, M.Maqomayev və Z.Hacıbəyovun ilk operalarında muğam əsas personajların obrazlarını açaraq səhnə inkişafının dramaturgiyasında mühüm ifadəli funksiyanı icra edir.

Üçüncü istiqaməti – 1940-60-cı illərdə yazılan operalarda leytmotiv prinsipinin araşdırılması məsələsi təşkil edir. Opera janrının inkişafı ilə yanaşı, personajların xarakteristikasında, müəyyən bir səhnənin bədii konsepsiyasının açılmasında bəstəkarlar daha geniş musiqi leksikasına müraciət edirlər. Burada muğam və aşıq sənətindən irəli gələn xüsusiyyətlərlə yanaşı, folklorun müxtəlif qatlarına (mahnı, meyxana və s. janrlara) üz tuturlar.

Dördüncü istiqaməti – 1970-ci illərdə yazılan operalarda leytmotiv prinsipinin araşdırılması məsələsi təşkil edir. Təhlilə cəlb olunmuş operalarda dramaturgiyanın eyni səviyyədə olmaması nəzərə çarpan cəhətlərdəndir. Eyni zamanda Azərbaycan musiqisində yeni opera janrlarının meydana gəlməsi (mahnı-opera, satirik opera, nağıl-opera, monoopera), xüsusən də XX əsrin 70-ci illərində bəstəkarların bu sahədə olan axtarışlarından xəbər verir.

Qeyd olunan problemin tarixi, təkamül, ümumi bədii-üslub aspektini açıqlayan, onun tədqiqinin tam metodoloji əsasını özündə əks etdirən xüsusi musiqişünaslıq tədqiqatları demək olar ki, naməlumdur. Problemin çox az dərəcədə işlənilməsi bütövlükdə tədqiqat obyektinin keyfiyyətcə orijinallığını göstərir və mövzunun aktuallığını müəyyən edir, eyni zamanda toxunulan məsələ Azərbaycan musiqişünaslığının gələcək inkişafı üçün geniş perspektivlər açır.

Leytmotiv və leytmotiv sisteminin araşdırılması bir sıra Qərb və rus musiqşünasların elmi işlərində öz əksini tapmışdır. Bununla bağlı konkret elmi əsərlər olmasa da, adətən leytmotiv və leytmotiv sisteminə hansısa bir bəstəkarlara həsr olunmuş monoqrafiya və dərsliklərdə nəzər yetirilmişdir. Bunlardan, D.Y.Belan [1] ,

[1] Бэлан, Д.Я. Рихард Вагнер / Д.Я.Бэлан. – Бухарест: Молодежь, – 283 с.

L.İ.Kandinski[2], V.D.Konen[3], B.V.Levik[4], K.Dahlaus[5] və digərlərinin opera estetikasına, teatr və simfoniyaya, R.Vaqnerə həsr olunmuş tədqiqatları qeyd olunur. Eləcə də müxtəlif janrların və bununla bağlı məsələlərin tədqiqində M.S.Druskin [6] və digərlərinin elmi araşdırmalarına, məlumat xarakterli ədəbiyyata nəzər yetirilmişdir.

Leytmotivin romantik operada istifadəsinə zəmin yaradan amillərdən J.Santen van Kolffin "Erinnerungsmotiv-Leitmotiv"[7] adlı əsərində "xatırlatma motivləri" kimi qeyd olunan üsullardan bəhs olunur, onun tarixi aspektlərindən danışılır. Eləcə də Karl Vörner "Beiträge zur Geschichte des Leitmotivs in der Oper"[8] operaların inkişafı kontekstində leytmotivin tarixinə nəzər yetirib. Həmçinin, M.Qaluşko «Музыкально-драматургические функции лейтмотива в немецкой романтической опере первой половины XIX века» adlı dissertasiyasında[9], E.V.Eyket «Реминисценция и

---

[2] Кандинский, А.И. Заметки о «Золотом петушке» // – Москва: Сов.музыка, – 1958. №6. – с.31-40; Кандинский, Л.И. Н.А.Римский-Корсаков. История русской музыки / Л.И.Кандинский. – Москва: 1979. т.2., кн.2, – 280 с.

[3] Конен, В.Д. Заметки о Р. Вагнере. Этюды о зарубежной музыке / В.Д.Конен. – Москва: Музыка, – 1975. – 480 с.; Конен, В.Д. Театр и симфония / В.Д.Конен. – Москва: Музыка, – 1975. – 375 с.; Конен, В.Д. История зарубежной музыки / В.Д.Конен. – Москва: Музыка, – 1979. – вып.3. – 528 с.

[4] Левик, Б.В. История зарубежной музыки / Б.В.Левик. – Москва: Музыка, – 1974. – вып.2. – 46 с.; Левик, Б.В. Рихард Вагнер / Б.В.Левик. – Москва: Музыка, – 1978. – 450 с.

[5] Dahlhaus, C. Zur Geschichte der Leitmotivtechnik bei Wagner. Das Drama Richard Wagners als musikalisches Kunstwerk // – Regensburg: – 1970, – p.17-36.

[6] Друскин, М.С. Вопросы музыкальной драматургии оперы / М.С. Друскин. – Ленинград: Музыка, – 1952, – 334 с.; Друскин, М.С. История зарубежной музыки (вторая половина XIX века) / М.С.Друскин. – Москва: Музыка, 1983. –528 с.; Друскин, М.С. Вопросы музыкальной драматургии оперы / М.С.Друскин. – Москва: Музгиз, –1952. – 344 с.

[7] Santen van Kolffin "Erinnerungsmotiv–Leitmotiv": [Elektron resurs] / URL:https://www.jstor.org/stable/741902.

[8] Wörner, K.H. "Beiträge zur Geschichte des Leitmotivs in der Oper": [Elektron resurs] / URL:https://www.deutsche-digitale-bibliothek.de/item/.

[9] Галушко, М.Д. Музыкально-драматургические функции лейтмотива в немецкой романтической опере первой половины XIX в: / дис.канд. искусствоведения. / – Ленинград, – 1980. – 210 с.

лейтмотив как факторы драматургии в опере»[10] adlı tədqiqatında oxşar fikirlə çıxış etmişdir.

Təbii olaraq Azərbaycan musiqişünaslığında da opera janrı, onun forma və növlərinə həsr olunmuş elmi araşdırmalar əsaslı yer almışdır. Belə ki, Elmira Abasova, Lyüdmila Karaqiçeva, Solmaz Qasımova, Aida Tağızadə, İmruz Əfəndiyeva, Validə Şərifova-Əlixanova, Qəmər İsmayılova, Şəhla Həsənova, Aida Hüseynova, Zemfira Qafarova, Cəmilə Həsənova və digərlərinin opera janrı sahəsindəki tədqiqatları araşdırma zamanı kömək olmuşdur. Burada xüsusilə İ.Məhərrəmovanın "Azərbaycan operasının janr və üslub problemləri"[11], R.Məmmədovanın "Роль музыкальной драматургии в операх азербайджанских композиторов"[12] adlı dissertasiyalarının adları da qeyd olunmuşdur.

Opera janrının tədqiqi məsələləri bir çox halda bəstəkar yaradıcılığına, səhnə əsələrlərinə, tamaşalara həsr olunmuş araşdırmalarda öz əksini tapıb. Bunlardan, E.Abasovanın, Ü.Hacıbəylinin opera və komediyalarından bəhs edən monoqrafiya və bir sıra araşdırmalar,[13] İ.Abezqauzun "Koroğlu" operasına həsr olunmuş

---

[10] Эйкерт, Е.В. Реминисценция и лейтмотив как факторы драматургии в опере: [Elektron resurs] / URL:https://www.dissercat.com/content/reministsentsiya-i-leitmotiv-kak-faktory-dramaturgii-v-opere287.

[11] Məhərrəmova İ.E. Azərbaycan operasının üslub və janr problemləri klassik opera kontekstində: [Elektron resurs] / URL: http://www.aak.gov.az/upload/dissertasion/sen/sen_n_mie_10_07_17.pdf.

[12] Мамедова, Р.М. Роль музыкальной драматургии в операх Азербайджанских композиторов: / диссертация на соискание учёной степени доктора философии по искусствоведению. / – Баку, – 2017. – 152 с.

[13] Абасова, Э.А. Опера «Лейли и Меджнун» Узеира Гаджибекова / [ред. Д.Данилов]; Академия Наук Азербайджанской ССР, Институт архитектуры и Искусств / Э.А.Абасова. – Баку: Азмузгиз, – 1960. – 66 с.; Абасова, Э.А. Оперы имузыкальные комедии Узеира Гаджибекова / Э.А.Абасова. – Баку: Изд.АН Азерб.ССР, – 1961. – 196 с.; Абасова, Э.А. Ниязи / Э.А.Абасова. – Баку: Азернешр, –1965.– 18 с.; Абасова, Э.А.Опера «Кёроглы» Узеира Гаджибекова / Э.А.Абасова. – Баку: Азернешр, – 1966. – 57 с.; Абасова, Э.А. Узеир Гаджибеков. / Э.А.Абасова. – Баку: Азерб. Гос. Издат., – 1975. – 142 с.

[14] Абезгауз, И.В. Опера «Кероглы» Узеира Гаджибекова (О художественных открытиях композитора) / И.В.Абезгауз. – Москва: Советский композитор, – 1987. – 230 с.

araşdırması «Опера «Кероглы» У.Гаджибекова»[14], Ə.Abbasovun «Узеир Гаджибеков и его опера «Кёроглы»[15] həsr etdikləri tədqiqatlar. Bununla yanaşı, S.Qasımova[16], A.Tağızadənin[17], A.Hüseynova[18], F.Əliyeva[19], Z.Qafarova[20], C.Həsənova[21] və s. opera janrının inkişafı və dramaturgiya sahəsində olan bədii axtarışlar bu kimi araşdırmalarda öz əksini tapmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim olunmuş dissertasiya işinin əsas obyekti – Azərbaycan bəstəkarlarının opera yaradıcılığıdır.

Tədqiqatın predmeti – XX əsrin 40-70-ci illərinin Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin təcəssümü, onun musiqidə məzmunun prosessual və dramatik üsul kimi tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Qarşıya qoyulan əsas məqsədlərdən biri, araşdırılan XX əsrin 40-70-ci illər Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin mahiyyətini açıqlamaq və bu elementlərin konseptual-dramaturji xüsusiyyətlərini müəyyən etməkdir.

---

[15] Абасов, А.Дж. Узеир Гаджибеков и его опера «Кёроглы» /А.Дж.Абасов.– Баку: АГИ, –1956. – 65с.

[16] Qasımova, S.C. M.Maqomayevin "Nərgiz" operası / S.C.Qasımova. – Bakı: Azərnəşr, – 1967. – 46 s.; Касимова, С.Дж. Оперное творчество композиторов Советского Азербайджана [2 cilddə] / С.Дж.Касимова. – Баку: Азгиз, ч.1,– 1973. – 101 с.; Касимова, С.Дж. Оперное творчество композиторов Советского Азербайджана [2 cilddə] / С.Дж.Касимова. – Баку: Ишыг, ч.2. – 1986. – 122 с.

[17] Tağızadə, A.Z. Cövdət Hacıyev / A.Z.Tağızadə. – Bakı: Mütərcim, – 2015. – 140 s.

[18] Гусейнова, А.Н. Формирование оперного стиля Муслима Магомаева (по материалам архива композитора): автореферат дис.кандидата искусствоведения: 17.00.02./ – Санкт-Петербург, – 1992, – 27 с.

[19] Əliyeva, F.Ş. 60-70-ci illərin I yarısında Azərbaycan bəstəkarlarının bəzi üslub təmayülləri: / sənətşünaslıq namizədi alimlik dissertasiyası. / – Bakı, – 1994. – 192 s.; Əliyeva, F.Ş.Azərbaycan muğam operası tarixindən // "Muğam aləmi" Beynəlxalq Elmi simpoziumunun materialları, – Bakı: Şərq-Qərb, – 2009, – s. 127-131.

[20] Кафарова, З.Г. «Кероглу» Узеира Гаджибекова / З.Г.Кафарова. / – Баку: Язычы, – 1981. – 166 с.

[21] Həsənova, C.İ. Ü.Hacıbəyovun "Koroğlu" operasında musiqi dilinin lad xüsusiyyətləri // – Bakı: Musiqi dünyası, – 2007. №3-4(33), – s.51-55; Həsənova, C.İ. Üzeyir Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları / C.İ.Həsənova. – Bakı: Mars-Print, – 2009. – 320 s.

Bu məqsəddən irəli gələrək bir sıra vəzifələr həyata keçirilir:

– leytmotivin funksional xüsusiyyətlərini müəyyən etmək və təsnifat vermək;

– leytmotivə zəmin yaradan tarixi qaynaqlara nəzər salmaq;

– qeyd olunan dövrə aid Azərbaycan bəstəkarlarının operalarında leytmotivin oxşar və fərqli xüsusiyyətlərini müəyyən etmək;

– tədqiqata cəlb olunan operalarda milli ənənələrlə yanaşı, özünəməxsus bəstəkar tapıntılarını ümumən bu janrın inkişafı kontekstində müəyyən etmək;

– Azərbaycan bəstəkarlarının operalarında səhnə hərəkətinin inkişafında leytmotiv prinsipinin təsirini öyrənmək.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını Azərbaycan və xarici musiqişünas alimlərin musiqişünaslıq sahəsində aprobasiyadan keçmiş elmi ədəbiyyatı təşkil edir. Dissertasiya tədqiqatının məqsədlərinə uyğun olaraq burada tarixi (Azərbaycan operasının təbii təkamül proseslərinin işıqlandırılması), kompleksli (dissertasiyada ədəbi mənbə ilə musiqinin sintezi kimi yanaşma prinsiplərinə əsaslanılması), analitik (Azərbaycan bəstəkarlarının operalarının nəzəri təhlilinin aparılması) və müqayisəli təhlil üsullarından istifadə edilmişdir.

Dissertasiyanın metodologiyasını əsasən leytmotiv nəzəriyyəsi üzrə tədqiqatlar təşkil edir (I fəsil). Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin tətbiqi məsələlərini açan semantik üsuldan istifadə olunur ki, bu da öz növbəsində obraz məzmununu və struktur-funksional metodu aşkarlamağa zəmin yaradır.

Tədqiqatın fundamental nəzəri əsasını B.Asafyevin intonasiya ifadəliliyi haqqında nəzəri təlimi təşkil etmişdir.[22] Tədqiqatçının intonasiya quruluşunun "bədii bütövlüyü" ilə bağlı, əsər hissələrinin bütöv kompozisiya daxilində nisbəti ilə əlaqəli müşahidələri leytmotiv prinsipinin dərk edilməsində mühüm addımlardandır.

Azərbaycan bəstəkarlarının opera yaradıcılığının tədqiqi Ü.Hacıbəylinin[23] milli modal sisteminin major-minor harmonik sistemi

---

[22] Асафьев, Б.В. Музыкальная форма как процесс / Б.В.Асафьев. – Ленинград: Музыка, – 1971. – 378с.

[23] Hacıbəyov, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.A.Hacıbəyov. – Bakı: Apastrof, – 2010. –176 s.

ilə üzvi sintezi haqqında metodoloji təliminə əsaslanmağa səbəb olmuşdur.

Dissertasiya işinin metodik mənbələrinə yuxarıda sadalanan musiqişünasların Azərbaycan bəstəkarlarının opera yaradıcılığı ilə bağlı araşdırmaları da daxildir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

1. Ü.Hacıbəyli və M.Maqomayev yaradıcılığından başlayaraq leytmotiv prinsipi Azərbaycan operalarında kompozisiya quruluşunun yeni formalarının inkişafına, yeni ifadə vasitələrinin axtarışına təkan verdi;

2. Azərbaycan bəstəkarlarının operalarında leytmotivlərin muğam və aşıq musiqisinə əsaslanması, bir növ, gizli dramaturgiyanın yaranmasına, ümumi kontekstdəki yerini müəyyən etməyə, həmçinin, öz növbəsində bu və ya digər obraz-sferaya aid olmasına zəmin yaratmışdır. Bu, Azərbaycan operasının bədii və musiqi-dramatik vəhdətinin yaranmasına, onun semantik əhəmiyyətinin dərinləşməsinə gətirib çıxarmışdır;

3. XX əsrin 40-70-ci illərinin Azərbaycan operalarında leytmotiv prinsipinin tətbiqi təhlil olunur;

4. Azərbaycan bəstəkarlarının operalarında leytmotivlərlə yanaşı, leytlad, leyttembr, leytjanrdan da istifadə olunur;

5. Əsərin dramatik ideyasından asılı olaraq, Azərbaycan bəstəkarlarının yaradıcılığında iki leytmotiv prinsipi tətbiq olunur:

a) Axınlı (inkişaf edən);

b) Səhnə hadisələrinin inkişafı prosesində dəyişməz qalan.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunmuş dissertasiya işinin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin kompleks şəkildə tədqiqi baş tutmuşdur. İlk dəfə olaraq:

– Azərbaycan bəstəkarlarının operalarında leytmotiv prinsipinin estetik mahiyyəti açılır. Eyni zamanda leytmotiv prinsipi Azərbaycan bəstəkarlarının opera dramaturgiyasında təkcə semantik deyil, həm də konstruktiv başlanğıc elementi kimi araşdırılır;

– opera dramaturgiyasında leytmotiv və leytmotiv prinsipi musiqi-bədii amil kimi araşdırılır;

– Q.Qarayev və C.Hacıyevin “Vətən”, Ə.Bədəlbəylinin “Söyüdlər ağlamaz”, M.Quliyevin “Aldanmış ulduzlar”, C.Cahangirovun “Azad” və “Xanəndənin taleyi” operalarında leytmotiv prinsipinin xüsusiyyətləri açıqlanır, F.Əmirovun “Sevil” operasının leytmotiv sisteminin təsnifatı aparılır, həmçinin, Ş.Axundovanın “Gəlin qayası” operasının leytmotiv prinsipi yenidən işlənilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**.

– Tədqiqatın materialı “Azərbaycan musiqi tarixi”, “Musiqi əsərlərinin təhlili”, “Tarixi musiqişünaslıq” və s. kimi fənlərin tədrisində istifadə oluna bilər;

– dissertasiyanın materialları və nəticələri əsasında hər hansı bir bəstəkarın, ümümən Azərbaycan operasının əhəmiyyətini araşdırdıqda faydalı mənbələrdən biri ola bilər;

– tədqiqat işi eləcə də gənc bəstəkarlar üçün opera janrında olan ənənələrin öyrənilməsinə və yeni yolların axtarışına təkan verən faydalı materialdır;

– tədqiqatın materialı yuxarıda qeyd olunan operaların tamaşalarında iştirak edən Azərbaycan Dövlət Opera və Balet Teatrının aktyorları üçün faydalı ola bilər;

– dissertasiya işinin əsas müddəalarından, həm də Azərbaycan musiqili-səhnə əsərlərinin öyrənilməsində köməkçi material kimi istifadə oluna bilər.

– dissertasiyada praktiki baxımdan əldə olunan nəticələr Azərbaycan bəstəkarlarının operalarının bədii və kompozisiya xüsusiyyətlərini dərk etməkdə təcrübəsi az olan teatr dirijorları üçün ilkin mənbə ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan elmi jurnallarda çap olunmuş yerli və xarici məqalələrdə, həmçinin, beynəlxalq və respublika elmi konfranslarındakı məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmiş və müzakirəyə təqdim olunmuşdur.

**Tədqiqatın materiallarını** klavirlər, partituralar (eləcə də əlyazmalar), Azərbaycan bəstəkalarının operalarının video və audio

materialları təşkil edir. Burada Niyazinin "Xosrov və Şirin", Q.Qarayev və C.Hacıyevin "Vətən", C.Cahangirovun "Azad" və "Xanəndənin taleyi", F.Əmirovun "Sevil", R.Mustafayevin "Vaqif", V.Adıgözəlovun "Ölülər", Ə.Bədəlbəylinin "Söyüdlər ağlamaz", Z.Bağırovun "Aygün", M.Quliyevin "Aldanmış ulduzlar", Ş.Axundovanın "Gəlin qayası" operaları tədqiqata cəlb olunmuşdur.

Dissertasiyada Ü.Hacıbəylinin ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu") və M.Maqomayevin ("Şah İsmayıl", "Nərgiz") operalarında leytmotiv prinsipinin qısa analitik icmalı da verilmişdir, bu da Azərbaycan bəstəkarlarının yaradıcılığında leytmotiv prinsipinin ayrı-ayrı mərhələlərdə təkamülünü izləmək istəyindən irəli gəlir.

Azərbaycan bəstəkarlarının yuxarıda sadalanan operaları təhlil edilərkən tədqiqata növbəti materiallar cəlb olunmuşdur:

– Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının arxivindən materiallar;

– Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivindən materiallar;

– bəstəkar Məmməd Quliyevin şəxsi arxivi;

– dissertasiyada müəllifi baxdığı Azərbaycan bəstəkarlarının operalarının videoyazıları.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya "Giriş", 3 "Fəsil" (13 paraqraf), "Nəticə", "İstifadə edilmiş ədəbiyyat siyahısı", "Saytoqrafiya" və "Notoqrafiya"dan ibarətdir. "Giriş" 9 səhifə 15708 işarədən, I fəsil 32 səhifə 59785 işarədən, II fəsil 49 səhifə 74523 işarədən, III fəsil 33 səhifə 49600 işarədən, "Nəticə" 4 səhifə 6926 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmində "İstifadə edilmiş ədəbiyyat siyahısı"nı istisna etməklə 209369 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi müəyyənləşdirilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında ətraflı məlumat verilir.

Dissertasiyanın **I fəsli – "Opera janrında leytmotivlərin semantik və dramaturji funksiyaları" –** iki paraqrafdan ibarətdir.

**1.1. "Leytmotiv musiqi-bədii ünsür kimi"** – leytmotiv termininin yaranması, təşəkkülü və inkişaf tarixi haqqında geniş məlumatlar öz əksini tapmışdır. Dissertasiyada vurğulanır ki, leytmotiv əsərin bədii mənasını möhkəmləndirən mühüm ifadə vasitələrindən biridir.

Bu paraqrafda leytmotivin əsas xüsusiyyətləri açıqlanır:

1. Quruluş baxımdan leytmotiv əsasən bir cümlədən çox olmayan motiv şəklində olmalıdır.

2. Musiqi əsərinin daxilində mövcud olan leytmotiv, digər musiqi materialları arasında diqqəti cəlb etmək üçün xüsusi parlaqlığı və orijinallığı ilə seçilməlidir: burada ifadəli intonasiya, səciyyəvi ritm, harmoniya, spesifik tembr önəm daşıyır.

3. Leytmotiv üçün biçimli olması, bütün kompozisiya boyu tanınması kimi amillər mühüm sayılır.

Konkret opera nümunələrindən istifadə edilərək vurğulanır ki, operalarda leytmotivlərdən təsviri üsul kimi də istifadə olunur: hansısa personajın leytmotivləri (çoxsaylı leytmotiv – portretlər); vəziyyətlərin leytmotivləri (məhəbbət, kədər və s. leytmotivləri); əşyaların leytmotivləri (üzük, qızıl, buynuz və s. leytmotivləri); ətraf mühitin leytmotivləri (əzab və yoxsulluq leytmotivləri); mənzərənin leytmotivləri (müxtəlif təbiət hadisələrinin – tufan və ya yanğın, meşənin, ulduzlu səmanın və s. leytmovləri); simvolik məna daşıyan leytmotivlər (çoxsaylı tale, fələk, qisas, lənət və s. leytmotivləri); müəyyən dramatik vəziyyəti təsvir edən xarakterik mövzuların leytmotivləri (istiqlal leytmotivi, qaçış leytmotivi və s.).

Həmçinin operada leytmotivlərin dramatik funksiyası da ətraflı təqdim olunur.

Paraqrafda qeyd olunur ki, leytmotivlərin operada tətbiqi dramaturji ifadənin bütövlüyünə zəmin yaradır, bu da Azərbaycan bəstəkarlarının opera yaradıcılığında öz əksini tapmışdır.

**1.2. "Ü.Hacıbəyli, M.Maqomayev operalarında leytmotivlərin semantikası və dramaturji funksiyaları"** – Azərbaycan bəstəkarlarının leytmotivlərinin özünəməxsusluğu Ü.Hacıbəyli və M.Maqomayev operalarının timsalında nəzərdən keçirilmişdir.

Verilmiş paraqrafda vurğulanır ki, Azərbaycan operalarının özünəməxsusluğunu milli ənənələrə, musiqi təfəkkürünə (muğam və aşıq musiqisinə) istinad təşkil edir. Bir məqam da qeyd olunur ki, Azərbaycan bəstəkarlarının leytmotivlərinin özünəməxsusluğu Azərbaycan ənənəvi musiqisinin obraz-emosional sferasının geniş istifadəsi ilə bağlıdır. Ü.Hacıbəylinin ilk operalarda dramaturgiyanın musiqi materialının muğam əsasında qurulması personajların səciyyəvi cəhətlərinin, psixoloji portretinin açılmasına və səhnə inkişafının simvolik məna almasına gətirib çıxardır.

İlk dəfə olaraq, Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasında əsas qəhrəmanın musiqi xarakteristikasında leytmotiv materialı kimi "Kərəmi" aşıq melodiyasına əsaslanılmışdır. Beləliklə, operanın baş qəhrəmanının adı operanın musiqi materialında rəmzi məna alır, yəni emosional-semantik assosiasiyaları yaradan motiv-simvola çevrilir.

Sonralar opera janrına müraciət edən Müslüm Maqomayev Üzeyir Hacıbəylinin mövcud təcrübəsindən istifadə etmiş, eləcə də, yeni-yeni yollar axtarmışdır. Belə ki, M.Maqovayevin "Şah İsmayıl" muğam operasında leytməqam prinsipindən danışmaq olar. Məsələn, Gülzarla İsmayılın sevgisi segah məqamı vasitəsi ilə açıqlanır. Bayatı-şiraz məqamı Aslan şah və köməkçi qüvvələr olan əsabələrinin leytsimvoluna çevrilir. Bəstəkar bayatı-şiraz məqamından Aslan şahın birinci ariyasında, qonaqların xorunda, vəzirlə Aslan şahın duetində və beşinci aktda olan xorda istifadə edir. Beləliklə, bayatı-şiraz məqamı Aslan şah və ətrafının, bir növ, leytməqam – xarakteristikasına çevrilir. Bəstəkar "Nərgiz" operasında da bu leytməqam prinsipini davam etdirmişdir.

Dissertasiya işində vurğulanır ki, müəyyən muğamın və ya aşıq havalarının obraz-məzmun sahəsindən istifadə metodlarına digər Azərbaycan bəstəkarlarının yaradıcılığında da rast gəlinir. Məsələn, Süleyman Ələsgərovun "Bahadur və Sona" operasındakı şüştər məqamı (ümumi leytmotivin olmasını nəzərə alsaq) sevgililərin leytməqamı kimi qəbul olunur. Z.Hacıbəyovun "Aşıq Qərib" operasında uvertürada səslənən aşıq mövzusu opera boyu əsas qəhrəmanın leytxarakteristikasına çevrilmişdir. V.Adıgözəlovun "Natəvan" və F.Əlizadənin "İntizar" ("İntizar" operasının ikinci adı – "Qarabağnamə"dir) kimi operalarında "Qarabağ şikəstəsi" muğamı rəmzi məna alır – əsərlərdə cərəyan edən

hadisə yerinin xarakteristikasıdır.

O da qeyd olunur ki, Ü.Hacıbəylinin "Koroğlu" operasında ilk dəfə olaraq leytmotiv sistemi bədii obrazların geniş şəkildə açıqlanmasına və operanın kompozisiya bütövlüyünə zəmin yaradan bir amil kimi istifadə olunmuşdur.

Dissertasiyanın **II fəsli – "Azərbaycan bəstəkarlarının opera yaradıcılığında leytmotivlərin tətbiqi prinsipləri (1940-60-cı illər)"** – altı paraqrafdan ibarətdir.

**2.1. Niyazinin "Xosrov və Şirin" operası.** Verilmiş paraqrafda vurğulanır ki, Niyazi kompozisiyanın fasiləsiz tipinin bütün xarakterik cəhətlərinə əsaslanmışdır, belə ki, burada ziddiyyətli musiqi obrazlarının qarşılıqlı əlaqəsi, tematik materialın dinamikləşməsinə səbəb olan simfonik inkişaf prinsipləri nəzərə çarpır. Bundan əlavə, bu operada intonasiya yeniliyi, parlaq melodika və lirik-psixoloji məzmunun açılmasında milli qaynaqlara istinad nəzərə çarpır.

Çoxplanlı musiqi dramaturgiyasına malik "Xosrov və Şirin" operasında Niyazi operanın musiqi dramaturji baxımdan bütövlüyünü təmin etmək, qəhrəmanların bir-biriləri ilə münasibətlərini, həmçinin, hadisələrin inkişafı boyunca onların hər birinin daxili aləmi, fərdi xüsusiyyətləri, psixologiyası və mənəviyyatını açmaq üçün Şirinin, Fərhadın leytmotivlərindən isifadə etmişdir. Artıq uvertüradan başlayaraq, məzmundan irəli gələrək qəhrəmanların hiss və həyəcanlarını daha da aydın göstərmək üçün əsas leytmotivlər olan – Şirinin mövzusu, Fərhadın mövzusu və onlara zidd hiyləgərlik mövzusundan istafadə etmişdir. Operada həmçinin, qəhrəmanların emosional vəziyyətlərini daha da nəzərə çatdırmaq üçün məhəbbət (Fərhadın, Şirinin, Xosrovun), nifrət (Şirinin) və hiylə (Xosrovun) leytmotivləri verilmişdir. Leytmotivlər dramaturgiyaya müsbət təsir göstərərək onu daha da zənginləşdirməyə xidmət etmiş, həmçinin, operada Eşq və Nifrət metaforasının daşıyıcısına çevrilmişdir.

**2.2. Q.Qarayev və C.Hacıyevin "Vətən" operası.** Operanın musiqili dramaturgiyası iki konfliktə əsaslanır: zahiri (sovet xalqının faşist işğalçılarına qarşı çıxması) və məhəbbət xətti (klassik məhəbbət üçbucağı çərçivəsində: Aslan – Dilbər – Mərdan). Qəhrəmani-vətənpərvərlik operası olan "Vətən" operasında qəhrəmanlar nəinki opera nömrələri ilə, eləcə də leytmotivlərlə ətraflı

şəkildə xarakterizə olunurlar.

Opera üzərində təhlil aparan tanınmış musiqişünas L.Karaqiçeva operada yalnız bir leytmotivin – faşistlərin leytmövzusu olduğunu qeyd etmişdir. Lakin operanın klavir və partiturasının geniş təhlili zamanı müəlliflərin bəzi əlyazma qeydlərinə əsasən təkcə faşistlərin deyil, digər qəhrəmanların – Aslanın (üç leytmotivi), Mərdanın, Eldarın da leytmotivlərinin olduğu məlum olmuşdur. Operada həm inkişaflı, axınlı leytmotiv prinsipindən (Aslanın leytmotivləri, faşistlərin leytmotivi), eləcə də ümumiləşmiş, dəyişməyən leytmotiv (Eldarın leytmotivi) prinsipindən istifadə olunmuşdur.

**2.3. F.Əmirovun "Sevil"** operasında bəstəkar klassik opera quruluşunda mövcud olan leytmotiv prinsipindən istifadə edərək, səhnə hərəkətlərinin inkişafına zəmin yaratmış, psixoloji səhnələrdə gərginliyi daha da artırmışdır. Məlumdur ki, "Sevil" operası daim musiqişünasların tədqiqat mövzusuna çevrilmiş bir operadır. Operanın geniş təhlili ilə bağlı kifayət qədər araşdırmalar mövcuddur. Dissertasiyada ilk dəfə olaraq "Sevil" operasının leytmotiv sistemi musiqi nümunələri ilə cədvəl şəklində iki kateqoriyada təqdim olunmuşdur.

Birinci kateqoriyada verilən leytmotivlər dinamik xarakter daşıyır, bütün opera boyu dəyişikliyə məruz qalır, semantik əhəmiyyəti vurğulayır, bu və ya digər səhnəyə emosional "rəng" verir. Birinci kateqoriyaya yeddi leytmotiv daxildir: Sevilin leytmotivi, Sevilin əzab leytmotivi, çağırış leytmotivi, Sevil və Balaşın dramından leytmotiv, Azançının, Gülüşün, Dilbərin leytmotivləri.

"Sevil" operasının leytmotiv sisteminin ikinci kateqoriyası statik xarakter daşıyır və səhnə hərəkətinin bütün inkişafi boyu orijinal görünüşünü tamamilə saxlayır. İkinci kateqoriyaya operanın 11 leytmotivi daxildir: Gündüzün, Atakişinin, Babakişinin, bəylərin, Məmmədəlibəyin, Əbdüləlibəyin, Taftanın və xalqın dörd leytmotivi.

F.Əmirovun operasının musiqisi müəyyən tematik komplekslərə əsaslanır ("Sevil" operasında 18 leytmotiv mövcuddur). Qeyd olunur ki, "Sevil" operası dramatik ifadə vəhdəti ilə hopmuşdur ki, bu da bəstəkarın leytmotiv prinsipindən istifadə etməsi ilə asanlaşdırılıb. Psixoloji prinsipin güclənməsi, emosianal vəziyyətini, operadakı personajların yaşantılarının həqiqətə uyğun ötürülməsi istəyi operada başdan-başa inkişaf prinsipinin inkişafını zəruri etdi. O, ayrı-ayrı opera

epizodlarını, səhnələri, rəsm əsərlərini səhnə fəaliyyətinin davamlı inkişafı axınına birləşdirdi. Fikrət Əmirovun dramatik metodu, onun Üzeyir Hacıbəylinin "Koroğlu" operası ilə başlayan opera partiturasının simfonikləşdirilməsi prinsipləri Azərbaycan bəstəkarlarının opera yaradıcılığına təsir göstərmişdir.

**2.4. C.Cahangirovun "Azad" operası** – paraqrafda qeyd olunur ki, bəstəkar qəhrəmani-vətənpərvərlik operanın faciəvi məzmunlu süjet xəttindən irəli gələrək (xalq və hakimiyyətin qarşı-qarşıya qoyulduğu səhnələrdə) qəhrəmanların xarakteristikasının, onların obrazlarının açıqlamasında, operanın struktur və kompozisiya planına uyğun olaraq leytmotiv prinsipindən istifadə etmişdir. Bu, özünü hələ operanın əvvəlində simli alətlərin, faqotun ifasında "iztirab, zülm" mövzusunun verilməsində büruzə vermişdir.

Operada əsas qəhrəmanların xarakteristikaları müxtəlif nömrələrlə, ansambllarla, həmçinin, leytmotivlərlə verilmişdir. Baxmayaraq ki, musiqişünas S.Qasımova operada yalnız məzlum xalqın leytmövzusunun olduğunu qeyd etmişdir, lakin təhlil zamanı "Azad" operasının musiqi materialının zənginləşməsinə xidmət edən digər leytmotivlərin də mövcudluğu qeyd olunmuşdur. Bunlar əsas qəhrəmanlar Ayaz və Səriyyənin nakam məhəbbəti və ayrılığı rolunda çıxış edən leytmotivlər, həmçinin, mənfi obraz olan Yavərin zülmü istismar leytmotivləridir. Beləliklə, operada olan leytmotivlər həm əks qüvvələr (xalq və Yavərlə saray əhli), eləcə də, lirik-dramatik xəttin inkişafına zəmin yaradan Səriyyə və Ayazın obrazları ilə əlaqəlidir.

**2.5. R.Mustafayevin "Vaqif" operası adlı** paraqrafda qeyd olunur ki, "Vaqif" operası lirik-dramatik janrda öz həllini tapsa da, vətənpərvərlik xəttini də özündə əks etdirir. Buna nail olan R.Mustafayev Ü.Hacıbəylinin yaradıcılığından bəhrələnərək bu iki tipi uzlaşdıra bilmişdir. Baxmayaraq ki, R.Fərhadova "Vaqif" operasında Vaqifin əsas iki leytmotivinin: 1) Şairin böyüklüyünü, xalqına, ölkəsinə olan məhəbbətini və 2) lirik cizgilərini təsvir edən leytmotivlər olduğunu qeyd etmişdir. Həmçinin, operada Xuramanın, Eldarın, Ağa Məhəmməd Şah Qacarın leytmotivləri, eləcə də xalqın iztirab leytmotivi, leytintonasiyalarıda mövcuddur. "Vaqif" operasında mövcud olan ən təsirli səhnələrdən olan Şuşanın yandırılması səhnəsində verilən mövzu leytsimvol əhəmiyyəti kəsb etmişdir.

Həmçinin, Ramiz Mustafayev operada cərəyan edən hadisələrin yerini səciyyələndirmək üçün “Qarabağ şikəstəsi” intonasiyalarından rəmzi bir mənada istifadə etmişdir. Rəmzi məna kimi bu leytintonasiya bütün opera boyu, istər vokal, istərsə də orkestr partiyasında öz əksini tapır.

Operada leytmotivlərin istifadəsi əsərin dramaturgiyasında mühüm rol oynayır, vahid simfonik inkişafa zəmin yaradır, kompozisiyanın bütövlüyünə səbəb olur.

**2.6. V.Adıgözəlovun “Ölülər”** operası adlı paraqrafda qeyd olunur ki, “Ölülər” nəinki bəstəkarın yaradıcılığında, eləcə də musiqi mədəniyyətimizdə satirik mövzuda yazılmış geniş həcmli səhnə əsərləri arasında özünəməxsus yer tutur.

V.Adıgözəlovun “Ölülər” operası bir sıra musiqişünaslar və musiqi tənqidçilərinin tətqiqat obyekti olmasına baxmayaraq, leytmotiv məsələsinə toxunulmamışdır. Operanın təhlili zamanı məlum olmuşdur ki, digər Azərbaycan bəstəkarları kimi, V.Adıgözəlov da Ü.Hacəbəyli və M.Maqomayev operalarından əsası qoyulmuş leytmotiv prinsipindən bəhrələnmişdir. Səhnə hərəkətlərinin inkişafında leytmotivlərin (üç leytmotiv – onlardan 2-i Şeyx Nəsrullahın, digəri isə Kefli İsgəndərin) tətbiq olunması onların ümumi kontekstdəki, bu və ya digər obraz sferasına aid yerini müəyyənləşdirməyə kömək etmişdir.

Obrazlara uyğun olaraq əsər daxilində tətbiq olunan leytmotivlər operanın süjet xəttinin inkişafında, əsas qəhrəmanların musiqili xarakterlərinin açılmasında mühüm rol oynayırlar.

Son olaraq II Fəsil üzrə nəticələr öz əksini tapmışdır: Vurğulanır ki, XX əsrin 40-60-cı illərində Azərbaycan bəstəkarlarının opera yaradıcılığında Ü.Hacıbəyli və M.Maqomayevin səhnə əsərlərində əsası qoyulmuş leytmotiv prinsipinin tətbiqi öz davamını tapmışdır. Səhnə hərəkətinin inkişafı boyu leytmotivlərin tətbiqi onların ümumi kontekstdəki, bu və ya digər obraz sferasına aid yerini müəyyənləşdirməyə kömək edir.

Dissertasiyanın **III fəsli – “Azərbaycan operasında leytmotivlərin bədii və ifadəli rolu (1970-ci illərə aid operaların timsalında)”** – beş paraqrafdan ibarətdir.

**3.1. Ə.Bədəlbəylinin “Söyüdlər ağlamaz” operası adlı paraqrafında** vurğulanır ki, nikbin faciə janrında yazılmış

qəhrəmani-vətənpərvərlik tipli operada bəstəkar leytmotiv sistemindən geniş şəkildə istifadə etmişdir, bu da kompozisiyanın dinamikləşməsinə zəmin yaratmışdır.

Burada bəstəkar daha çox obrazların psixoloji vəziyyətlərinin leytmotivlərini (Vüqar və Jalənin sevgi leytmotivi, Xəyal ananın vicdan əzabı leytmotivi), obrazların fərdi xüsusiyyətlərinin leytmotivi (Vüqarın vətənpərvərlik leytmotivi), operanın əsas personajları (Jalə, Murad, Əzizin leytmotivləri) vermişdir. Həmçinin, operada vals janrı aşiqlərin bir növ leytjanrına çevrilmışdır.

Bir məqam da xüsusilə qeyd olunur ki, "Söyüdlər ağlamaz" operasının giriş hissəsində Ə.Bədəlbəylinin "Bayatı-Şiraz" muğamı vasitəsilə təqdim etdiyi leytmotiv vətənpərvərlik milli təcəssümü kimi tamaşaçıda operanın qəhrəmani, mübariz əhval-ruhiyyəsi ilə tanışlıq üçün zəmin yaratmışdır. "Bayatı-Şiraz" muğamı operanın əsas qəhrəmanı olan vətənpərvər, mərd, qorxmaz hərbiçi Vüqarın leytmotivinə çevrilmişdir. Burada "Bayatı-Şiraz" muğamı qəhrəmanlıq, vətənpərvərlik milli ideyası kimi verilmişdir.

**3.2. Z.Bağırovun "Aygün" operası** paraqrafında qeyd olunur ki,bu əsər Azərbaycan musiqi tarixində mahnı-opera janrında yazılmış ilk lirika-psixoloji operadır. Mahnı-opera janrının klassik operadan fərqli cəhəti qəhrəmanların xarakretistikalarının açılması ariya, ariozo vasitəsi ilə deyil, mahnı vasitəsi ilə verilməsidirsə, oxşar cəhəti isə hər bir obraza individual yanaşılaraq leytmotivlərin verilməsidir.

Z.Bağırov hər bir obrazın musiqili xarakterinə həssaslıqla yanaşmış və onların daxili aləmini, hiss və həyəcanlarını tam dolğunluğuyla çatdırmaq üçün leytmotivlərdən geniş istifadə etmişdir. Bunlara misal olaraq, Aygünün "bayatı şiraz" məqamına əsaslanmış xatırlatma əhəmiyyəti kəsb edən leytmotivi, Əmirxanın iki leytmotivi (Əmirxan transformasiya olunan obraz olduğu üçün onun iki leytmotivi verilmişdir, onun 2-ci leytmotivi "Həsrət leytmotivi" adlandırılmışdır), Elyarın leytmotivi verilmişdir.

Mövcud leytmotivlər təkcə qəhrəmanların portret xarakteristikalarının açılmasına deyil, operanın musiqi materailının daha da zənginləşməsinə, səhnələr arasında intonasiya tağlarının yaranmasına, ümumi quruluşun vəhdətinə səbəb olmuşdur.

**3.3. Ş.Axundovanın "Gəlin qayası" operası** paraqrafında qeyd

olunur ki, verilmiş opera lirik-faciə janrında yazılmış muğam operasıdır. Lakin Şəfiqə Axundovanın muğam operası ilə Ü.Hacıbəyli, M.Maqomayev və Z.Hacıbəyovun muğam operalarını fərqləndirən cəhət operanın musiqi materialına leytmotiv sisteminin daxildir. Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasında ilk dəfə olaraq əsas qəhrəmanın leytmotivi "Kərəmi" aşıq melodiyasına, M.Maqomayev "Şah İsmayıl" operasında qəhrəmanların leytxarakteristikası məqamlara əsaslanırdısa, Ş.Axundovanın "Gəlin qayası" muğam operasının quruluşuna leytmotiv sistemi daxil olmuşdur.

Opera dramaturgiyasını zənginləşdirmək üçün Ş.Axundova leytmotivlərdən (Gülbahar, Xan, həmçinin, "Bədbəxtçilik", "Ah çəkmə" leytmotivləri) istifadə etmişdir. Onların leytmotivləri operanın süjet xəttinə uyğun olaraq bəzən vokal partiyada, bəzən də orkestrdə səslənərək dramaturgiyanın genişlənməsinə zəmin yaratmışdır.

Paraqrafda həmçinin, Ş.Axundovanın "Gəlin qayası" operasında "leytmotivin ikiləşdirilməsi" metodundan (T.van der Stixovenin termini – nə zaman ki eyni motiv müxtəlif insanlarda və ya müxtəlif vəziyyətlərdə istifadə olunur) istifadə etməsi xüsusilə qeyd olunmuşdur (I aktındakı "Bədbəxtçilik" leytmotivi). Bu leytmotiv daha sonra III aktda Xanın yuxusu səhnəsində verilmişdir və operanın sonuncu aktında Camalın oxuması səhnəsində "Bədbəxtçilik" leytmotivi operanın gərginliyini, faciəvi sonluğunu göstərmək üçün, aşiqlərin nakam məhəbbətini daha da vurğulamaq məqsədi ilə verilmişdir. "Bədbəxtçilik" leytmotivin intonasiyası sonuncu dəfə operanın final səhnəsində "Aman bu dəhşət, aman bu fəlakət" xorunda səsləndirilmişdir.

**3.4. M.Quliyevin "Aldanmış ulduzlar"** operasında Məmməd Quliyev təkcə satirik janrın elementləri deyil, həmçinin, qədim teatr forması olan misteriyaların, moralitenin, dell`art-ın (yəni qeyri şəxsləndirmə, obrazlı konsepsiyada "personaj maska"nın), balet pantomima, milli kukla teatr, mərasim folklor səhnələrindən istifadə etmişdir. Məhz bu kimi xüsusiyyətlər opera dramaturgiyasını çoxplanlı etmişdir. Həmçinin, satirik opera janrı çərçivəsində bəstəkar Novruz bayramı mərasim tamaşaları, xalq meydan tamaşalarını təsvir edərkən xalq musiqisinin muğam, aşıq musiqisi, xalq mahnıları, rəqs və meyxana janrına müraciət etmişdir.

Bütün bunlarla yanaşı, geniş və rəngarəng opera

dramaturgiyasında bəstəkar həmçinin, leytmotiv prinsipindən də özünəməxsus şəkildə istifadə etmişdir. M.Quliyevin “Aldanmış ulduzlar” operasında mövcud olan hər iki leytmotiv (Səlma və Ulduzların) motiv-simvol kimi təqdim olunur. Ulduzlu səmanın musiqi-səs sferası statikdir və kainatı təcəssüm etdirir. Səlmanın inkişaflı leytobrazı isə prinsip kimi mənəvi azadlığın, sevgi vasitəsilə yüksəlişin təcəssümü kimi verilmişdir. Leytobrazların bu təqdirdə təfsiri operada həm inkişaflı, axınlı (Səlmanın leytmotivi), həm də, ümumiləşmiş, dəyişməyən (Ulduzların leytmotivi) leytmotiv prinsipinin tətbiqindən xəbər verir.

**3.5. C.Cahangirovun “Xanəndənin taleyi” operası.** Operada C.Cahangirov keçmiş və bugünki hadisələri təsvir etmək üçün milli musiqinin bir sıra janrlarını (xalq mahnıları, rəqsləri) Qərb musiqisinin janrları (estrada, şanson) ilə sintezdə vermişdir.

Operanın Proloq və Epiloqunda “halqa çərçivəsi” kimi dərk olunan dramatik üsuldan istifadə olunur, Mir Səidin qürbətdə keçirtdiyi yalqız və səfil obrazı təsvir olunur. Məhz Proloqda baş qəhrəmanın leytmotivi ilk dəfə səslənir, onun xatirələri öz əksini tapır. Orkestrin girişində “Vətən həsrəti” adlandırılan leytmövzu səslənir ki, sonrakı inkişafda “Siz mənim Vətənimdən gəlmisiniz” sözləri ilə olan ariozoda (şur məqamı əsasında) leytmotivin intonasiya materialından yenidən istifadə olunmuşdur.

C.Cahangirov bu operasında fərdi təfsirinə əsaslanaraq, Şərq və Qərb musiqisindən məharətlə istifadə edir. Belə ki, bəstəkar sərbəst yozumda şansondan da yararlanır. Şanson bu operada leytmotiv xarakterini alaraq, “gerçəkləşməyən arzu” kimi mənalandırılır. Bu səbəbdən fransız şansonun mövzusu ilk dəfə proloqda keçir.

Fonoqram vasitəsilə Paris qrammofon vallar mağazasında çox ifadəli səslənirsə, sonradan səfil, qoca Mir Səid Paris küçələrində gəzən zaman qəmli bir melodiyaya çevrilir. Epiloqda bu melodiya Mir Səidin Azərbaycan turistləri ilə Parisdə qrammofon valları mağazasında görüşu zamanı səslənir.

Üçüncü fəslin sonunda vurğulanır ki, 1970-ci illərin Azərbaycan bəstəkarlarının operalarının mühüm ifadə vasitələrindən biri də leytmotiv prinsipidir. Operaların leytmotivlərində ifadəli və təsvir prinsipləri üzvi şəkildə birləşərək, musiqi obrazının

konkretləşməsinə zəmin yaradır. Əks tərəfləri təsvir edən intonasiya sferaları nəinki qarşı-qarşıya qoyulur, dramatik situasiyadan asılı olaraq bir-biri ilə uzlaşır, bir-birinə təsir edir.

Dissertasiyanın **Nəticə** bölməsində qeyd olunur ki, leytmotiv və reminissensiyanın (xatırlatma) konseptual-dramaturji bir element kimi musiqi incəsənətinin və əsasən də musiqili teatrın inkişaf prosesində uzun və çox maraqlı tarixə malikdir.

Romantik dövrdə xüsusilə geniş yayılmış və inkişaf etmiş reminissensiya (xatırlatma) və leytmotiv hələ də musiqi praktikasında mühüm yer tutmaqdadır.

Şübhəsiz ki, bunun da özünəməxsus müxtəlif səbəbləri vardır. Belə ki, bu iki element özündə kommunikativ və semantik kimi mühüm və zəruri funksiyaları birləşdirir.

1. Kommunikativ funksiya – musiqinin qavranılmasına psixoloji mexanizmlərlə təsir göstərir ki, bu da əsərin proqramını və məzmununu daha da aydın şəkildə dərk etmək üçün zəmin yaradır. Kommunikativ (ünsiyyət) funksiyası struktur səviyyədə müxtəlif növ təkrarlamalarla (repriza) ifadə olunur.

2. Semantik funksiya – bədii məzmunun konkret təcəssümünün müxtəlif vasitələri ilə bağlıdır: intonasiya elementlərindən, janr və üsluba kimi.

Nəzərdən keçirilən müxtəlif kompozisiya, janr tipli operalarda oxşar və fərqli cəhətləri araşdıraraq, leytmotivlərin opera dramaturgiyasında səciyyəvi prinsipləri təhlil olunub. Məlum olduğu kimi, opera janrı dayanmadan inkişaf etsə də, reform olunsa da, klassik ənənələrlə olan bağlılığı itirmir.

Tədqiqata cəlb olunan operalarda (Niyazi “Xosrov və Şirin”, Q.Qarayev və C.Hacıyev “Vətən”, C.Cahangirov “Azad” və “Xanəndənin taleyi”, F.Əmirov “Sevil”, R.Mustafayev “Vaqif”, V.Adıgözəlov “Ölülər”, Ə.Bədəlbəyli “Söyüdlər ağlamaz”, Z.Bağırov “Aygün”, M.Quliyev “Aldanmış ulduzlar”, Ş.Axundova “Gəlin qayası”) milli ənənələrlə yanaşı, özünməxsus bəstəkar tapıntıları da nəzərə çarpır ki, bu da janrın yeniləşməsinə səbəb olur. Təhlil olunan operalar janr və mövzu baxımından rəngarəng olduqları üçün, tətbiq olunan leytmotivlər, həmçinin leytmotiv prinsipində də bu rəngarənglik özünü büruzə vermişdir.

Azərbaycan bəstəkarlarının opera əsərlərində opera formaları ilə yanaşı, leytmotivlər xüsusi dramaturji rola malikdir. Leytmotivlər vasitəsilə süjetin, səhnənin konkretləşdirilməsi, pərdələr arasında əlaqələrin möhkəmləndirilməsi baş verir, simfonik inkişafa zəmin yaranır. Məhz bu səbəbdən, operada musiqi bütün bədii kompleksin ən ümumiləşdirici və eyni zamanda təfərrüatları ilə olan aparıcı başlanğıc hesab olunur. Bu və ya digər personajın, vəziyyətin, eyni zamanda əsərin bütövlükdə ideya-dramaturji inkişafının möhkəmləndirilməsi, formalaşması, nəticədə ideya-obraz məzmununun həyata keçirilməsi leytmotivlər vasitəsi ilə icra olunur.

Təqdim olunmuş dissertasiyada fərdi bəstəkar yanaşma metodlarından istifadə olunması leytmotiv prinsipin tətbiqindən xəbər verir. Burada həmçinin leytmotivlər və xatırlatmanın oxşar xüsusiyyətlərə baxılmışdır.

Əvvəldə qeyd olunduğu kimi, leytmotiv inkişafa sinxron olan bir səslənmədir, reminissensiya (xatırlatma) isə indi baş verənlərlə yox, nə vaxtsa olub keçənlərlə bağlı xatirələri əks etdirir. Beləliklə, əsərlərin dramaturgiyasında musiqili xatırlatma bilavasitə müəyyən psixoloji vəziyyətin yada salınması ilə bağlıdır. Qeyd edildiyi kimi, "xatırlatma" insan şüurunun təzahürünün aktiv formasıdır. Xatırlatma musiqi obrazına çevrilərək, yaddaşın bədii adekvatı kimi əsərin ümumi inkişaf prosesinə daxil edilir və bütün hallarda, sözsüz ki, dinamikləşdirən amilə çevrilir. Repriz tipli xatırlatma formayaradıcı faktor kimi çıxış edərək, hansısa vəziyyəti yada salmaq üçün əsər daxilində müəyyən bir motivin və ya mövzunun təkrarlanması ilə həyata keçirilir. Belə ki, V.Adıgözəlovun "Ölülər" operasında Şeyx Nəsrullahın II leytmotivi I aktda İsgəndərin "Yenə Allah, yenə Quran" ariyasında səslənərək xatırlatmanın repriz tipli növünü əks etdirir. C.Cahangirovun "Xanəndənin taleyi" operasında "Vətən həsrəti" mövzusu əsərin əvvəlində leytmotiv kimi qəbul olunursa, sonradan o, itirilmiş Vətənin bir rəmzinə çevrilərək, xatırlatma funksiyasını icra edir.

Ü.Hacıbəyli və M.Maqomayevin ilk muğam operalarından başlayaraq personajların portret xüsusiyyətlərinin qurulmasında, onların hisslərinin üzə çıxarılmasında Azərbaycan məqamlarının obraz-emosional sferasından istifadə olunması əsas götürülürdü. Ü.Hacıbəylinin "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl",

S.Ələsgərovun "Bahadur və Sona", Ə.Bədəlbəylinin "Söyüdlər ağlamaz" və s. operalarına əsaslanaraq, Azərbaycan bəstəkarlarının opera yaradıcılığında leytməqam prinsipindən danışmağa imkan yaranır. Həmçinin, bəzi personajların portret xarakteristikası üçün leyttembrlərin istifadəsinə də rast gəlinir. Məsələn, Ü.Hacıbəylinin "Koroğlu" operasından Həsən xanın çıxışından öncə trubaların və tronbonların çağırışları səslənir, R.Mustafayevin "Vaqif" operasında Qacarın obrazı surdinalı nəfəs alətlərində verilir və s.

Azərbaycan operalarında nəinki əsas obrazların leytmotivləri, həmçinin, digər xüsusiyyətləri əks etdirən leytmotivlərdən də istifadə olunur:

– Müxtəlif təbiət obrazları, xoşagəlməz təbiət hadisələrinin leytmotivləri (V.Adıgözəlovun "Vaqif" operasında şimşək mövzusu, M.Quliyevin "Aldanmış ulduzlar" operasında ulduzların leytmotivi);

– Leytmotiv – simvollar: qəzəb leytmotivi, tale leytmotivi, (Niyazinin "Xosrov və Şirin" operasında hiylə leytmotivi, F.Əmirovun "Sevil" operasında Sevilin əzab leytmotivi);

– qəhrəmanların psixoloji vəziyyətlərinin leytmotivləri (Ü.Hacıbəylinin, M.Maqomayevin, Niyazinin, C.Cahangirovun, Ə.Bədəlbəylinin operalarında çoxsaylı məhəbbət leytmotivləri, qısqanclıq, kədər, əzab, qəzəb leytmotivləri və s.).

Beləliklə, təqdim olunan tədqiqat göstərir ki, 1940-70-ci illər Azərbaycan bəstəkarlarının operalarının kompozisiya strukturunun formalaşmasında leytmotiv prinsipi əsas rol oynayaraq, opera dramaturgiyanın inkişafında mühüm ifadə vasitələrindən birinə, mənanın təsbitolunma üsuluna çevrilmişdir. Mövzunun gələcəkdə tədqiq olunması Azərbaycan bəstəkarlarının yaradıcılığında opera janrının inkişafının ümumi mənzərəsini tamamlamağa imkan verəcəkdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri çap olunmuşdur:**

1. Cumayeva, L.C. "Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" operasının dramaturji xüsusiyyətləri" // Doktorantların və gənc tədqiqatçıların XX Respublika Elmi Konfransının materialları, Azərbaycanda "Multikultralizm ili"nə həsr olunur. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. – Bakı: – 24-25 may, – 2016, – s.492-494.

2. Cumayeva, L.C. “Azərbaycan operasında leytmotiv və leytmotiv sisteminin ümumi xarakteristikası” // – Bakı: Konservatoriya, – 2017. №3(37), – s.59-62.
3. Cumayeva, L.C. “Leytmotiv sisteminin əsas prinsipləri” // – Bakı: Mədəniyyət dünyası, – 2018. XXXV buraxılış, – s.104-111.
4. Cumayeva, L.C. Məmməd Quliyevin “Aldanmış ulduzlar” operasının əsas kompazisiya xüsusiyyətləri // – Bakı: Elmi əsərlər, – 2019. №27, – s.83-87.
5. Cumayeva, L.C. Ramiz Mustafayev “Vaqif” operasında leytmotiv sisteminin təhlili // Mədəniyyət: Problemlər və Perspektivlər Doktorant və Gənc tədqiqatçıların XIII Beynəlxalq elmi konfransının materialları. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, İmadəddin Nəsiminin 650 illik yubileyinə. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. – Bakı: – 2019, – s. 92-93.
6. Cumayeva, L.C. Ə.Bədəlbəylinin “Söyüdlər ağlamaz” operasında leytmotiv sistemi haqqında ümumi məlumat // Doktorantların və gənc tədqiqatların XXIII Respublika Elmi Konfransının Materialları II cild, İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunur. Memarlıq və İnşaat Universiteti. – Bakı: – 03-04 dekabr, – 2019, – s.275-276.
7. Cumayeva, L.C. Azərbaycan bəstəkarlarının opera yaradıcılığında dramaturgiya və obraz – intonasiya prinsipləri Ü.Hacıbəyli, M.Maqomayev, Niyazi) // Qloballaşan dünyada musiqi ənənələri, II Beynəlxalq elmi-praktik konfransın materialları. Azərbaycan Milli Konservatoriyası – Bakı: – 14-16 noyabr, – 2022, – s. 145-148. – [Elektron resurs] / URL: http://konservatoriya.az/konfrans/2022.pdf
8. Cumayeva, L.C. Satirik janrlı eserler kontekstinde Memmed Quliyevin “Aldanmış ulduzlar” operası // – Türkiyə: Türk Müziği, – 2022. Cilt 2, Sayı 2, s. 59-66. – [Elektron resurs] / URL:https://turkmuzigidergisi.com/index.php/tm/issue/view/4
9. Cumayeva, L.C. Лейтмотив и лейтмотивная система в оперном искусстве // – Bakı: Sənət Akademiyası (beynəlxalq elmi-nəzəri jurnal), – 2022. №5(20), – s.70-77.

10. Cumayeva, L.C. Opera dramatürjisində tür sorunu ve ana motifleri kullanım ilkleri // Uluslararası İstanbul Multidisipliner Bilimsel Araştırmalar Kongresi, – İstanbul: – 28-29 Eylül, – 2022, – s.639-647. – [Elektron resurs] / URL:https://www.izdas.org/_files/ugd/d0a9b7_f8f976d593c4487199797ef39255c7ed.pdf
11. Jumayeva, L.J. Application of leitmotif system in Ramiz Mustafayev`s opera "Vaqif" // New York City, 7th İnternational NEW YORK Conference on Evolving Trends in İnterdisciplinary RESEARCH & PRACTICES, – Manhattan: October 1-3, – 2022, – s.116-121. – [Elektron resurs] URL:https://www.nyconference.org/_files/ugd/614b1f_e3b592725aa74579b4bafea9e3fcf94d.pdf
12. Джумаева, Л.Дж. Лейтмотив и лейтмотивная система в оперном искусстве // – Москва: Музыка и время, – 2023. №2, – с. 3-5.
13. Джумаева, Л.Дж. Психофизиологические предпосылки и семантико – драматургические истоки образования реминисценции и лейтмотивам в музыкально – театральном искусстве // – Naxçıvan: Axtarışlar, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnistitutu, – 2023. Cild-17, – s.188-199.
14. Джумаева, Л.Дж. Принцип использования лейтмотива Закира Багирова в опере «Айгюн» // – Казахстан, Алматы: Международный научно-практический журнал ENDLESS LIGHT in SCIENCE, – 20 января, – 2023. – s.453-461. – [Elektron resurs] / URL:https://cyberleninka.ru/journal/n/endless-light-in-science?i=1119229
15. Джумаева, Л.Дж. Поэтика реминисценции // – Bakı: Sənət Akademiyası, – 2023. №1(21). – s.37-50.
16. Cumayeva, L.C. Ramiz Mustafayev "Vaqif" operasında leytmotif sisteminin uyğulanması // İnternational Scientific Symposium "Heydar Aliyev and the Azerbaijan Culture", – Türkiye: – 2023, – s.192-199. – [Elektron resurs] / URL:https://academia.edu/resource/work/108599619



26

Dissertasiyanın müdafiəsi 28 fevral 2025-ci il tarixində saat 11:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.01.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 43349 işarə

Tiraj: 100